**“Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 7 (I kitab), maddə 1510) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi”nin 7.3-cü bəndinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Fondun güzəştli kreditlər üzrə daxilolmalarının (faiz, cərimə və sair) 10 faizi (Fondun saxlanması xərcləri güzəştli kreditlər üzrə daxilolmaların 90 faizindən daha çox hissəsini təşkil etdikdə isə, Fondun saxlanma xərclərinə ayrılan hissəsi istisna olmaqla, qalan vəsait) Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada bölüşdürülür və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada istifadə olunur.”.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası” üzrə:

2.1. 1.7-ci bənddə “hissəsi” sözü “, həmçinin bu Qaydanın 1.8-ci bəndində nəzərdə tutulan hissələri” sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 1.8-ci bənd əlavə edilsin:

“1.8. Fondun güzəştli kreditlər üzrə daxilolmalarının (faiz, cərimə və sair) 10 faizi (Fondun saxlanması xərcləri güzəştli kreditlər üzrə daxilolmaların 90 faizindən daha çox hissəsini təşkil etdikdə isə, Fondun saxlanma xərclərinə ayrılan hissəsi istisna olmaqla, qalan vəsait) Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydada bölüşdürülür və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada istifadə olunur.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 aprel 2019-cu il
614